# 1991-CI İLDƏ XOCALI ŞƏHƏRİ ƏRAZİSİNƏ TƏŞKİL EDİLMİŞ TƏLƏBƏ EKSPEDİSİYASI VƏ ONUN NƏTİCƏLƏRİ

**Nurməmmədov Məhəmməd-** baş müəllim, Memarlıq konstruksiyaları və abidələrin bərpası kafedrası, AzMİU, m.nurmamedov@mail.ru

**Xülasə.** Məqalə Xocalı və Ağdam rayonu ərazilərinə 1991-ci ildə bir qrup tələbə-memarın təşkil etdikləri ekspedisiya zamanı gördükləri işlərin nəticələrinə həsr olunmuşdur. Ekspedisiyanın əsas məqsədi AzİMU-nun şəhid tələbəsi Fuad Babayevin adına layihələndirilmiş xatirə bulağının tikintisi üçün yer seçmək, tikinti işlərini Xocalının yerli təşkilatları ilə razılaşdırmaqdan ibarət olmuşdur. Xocalıda olduqları müddət ərzində ekspedisiya üzvləri qarşılarına qoyduqları tapşırıqları yerinə yetirmişdir. Məqalədə eyni zamanda Xocalı ərazində və ətrafında yerləşmiş Xoca Əli türbəsi, Əsgəran qalası, Ağdamın Gülablı və Abdal Gülablı kəndləri ərazilərində yerləşən məscid və qədim hamam binalarına aid ekspedisiya üzvlərinin topladıqları materiallar təqdim edilir. Məqalənin sonunda nəticə olaraq qarşıda duran vəzifələr müəyynləşdirilmiş və qeyd olunan abidələrin bərpa və istifadəsi ilə bağlı təkliflər irəli sürülmüşdür.
**Açar sözlər:** Xocalı, Ağdam abidələri, Əsgəran qalası, Xocalı türbəsi, Gülablı abidələri, Abdal Gülablı

## STUDENT EXPEDITION ORGANIZED IN KHOJALY CITY IN 1991 AND ITS RESULTS

**Nurmammadov Mahammad-** senior lecturer, department of Architectural structures and restoration of monuments, AzUAC, m.nurmamedov@mail.ru

**Abstract**. The article is dedicated to the results of the work done by a group of student-architects in 1991 in Khojaly and Aghdam regions. The main purpose of the expedition was to select a site for the construction of a memorial fountain designed in the name of the martyred student of AzUAC Fuad Babayev, to coordinate the construction work with local organizations of Khojaly. During their stay in Khojaly, the members of the expedition fulfilled the tasks set before them. The article also presents materials collected by members of the expedition on the Khoja Ali tomb, Askeran Fortress located in and around Khojaly, on mosques and ancient bathhouses located in Gulabli and Abdal Gulabli villages of Aghdam. At the end of the article, as a result, the tasks ahead were identified and suggestions were made for the restoration and use of these monuments.
**Keywords:** Khojaly, Aghdam monuments, Askeran fortress, Khojaly tomb, Gulabli monuments, Abdal Gulabli

Xocalı-Gədəbəy mədəniyyəti adı ilə tarixə düşmüş Azərbaycanın ecazkar güşəsi Xocalı şəhəri və eyniadlı rayonun ərazisi müxtəlif abidələrlə zəngindir. XIX əsrdə aşkar edilmiş son tunc və ilk dəmir dövrünə (e.ə.VIII-VII əsrlər) aid daş qutu və kurqanlar, qədim yaşayış qalıqları Xocalı rayonu ərazisini Cənubi Qafqazın ilk məskunlaşma ərazilərindən saymağa əsas verir. Rayonun ərazisi həmçinin memarlıq abidələri ilə də zəngindir. Həmin abidələri öyrənmək məqsədilə 1991-ci ildə universitetin Memarlıq fakultəsinin 106 qrup tələbələri tərəfindən Xocalı şəhəri ərazisinə ekspedisiya təşkil edilmişdir. Eyni zamanda həmin ekspedisiyanın qarşısında duran mühüm bir vəzifə universitetin ilk şəhid tələbəsi Fuad Babayevin xatirəsini əbədiləşdirmək məqsədilə Xocalı şəhərində bulağın tikintisi üçün yer seçmək və tikintiyə start vermək idi. Bu sətirlərin müəllifi tərəfindən həmin dövrdə bulağın layihəsi tərtib edilmiş, onun icrası üçün yerli sakinlər və tikinti təşkilatı ilə razılığa gəlinmişdi. Həmin dövrdə Xocalı erməni silahlı qüvvələri ilə mühasirə vəziyyətində idi. Ora avtomobil yolu demək olar ki, bağlanmışdı. Avtomobillə getmək istəyən insanların təhlükəsizliyinə heç kəs təminat vermirdi. Bu səbəbdən Xocalı şəhəri ilə yalnız helikopterlərlə əlaqə vardı. Helikopter Ağdam şəhərindən uçurdu. İki gün Ağdam müdafiə qərargahında gözlədikdən sonra nəhayət hərbi rəhbərliyin icazəsi ilə bizə helikopterlə Xocalıya uçmağa icazə verildi. Nəhayət Xocalıya çatdıq. Lakin biz burada iki gün gözləməli idik. Yəni növbəti reys iki gündən sonra olacaqdı. Beləliklə, sakinlərdən birinin evində yerləşdikdən sonra proqrama uyğun fəaliyyətə başladıq. Yerli hakimiyyət qurumları ilə görüşüb Fuad Babayevin xatirəsini əbədiləşdirmək üçün tərtib etdiyimiz layihəni təqdim etdik. Layihə bəyənildi və onun tikintisi üçün yer seçdik. Bulağın tikintisinə təklifimizlə universitetin istehsalat təcrübəsi keçən tələbələri

qoşulmalı idi. Bu səbəbdən Tikintinin təşkili kafedrasının müəllimi Arif Abbasov da bizimlə birlikdə səfərdə iştirak edirdi. Təəssüf ki, məlum faciəli hadisələr səbəbindən həmin layihəni reallaşdırmaq mümkün olmadı.



**Şəkil 1.** Xocalı şəhərində 1991-ci ildə şəhəri müdafiəçiləri ilə

İki gün ərzində ekspedisiya üzvləri şəhər ərazisində və ətrafında yerləşən abidələrə baxış keçirmişdi. Xocalı qəbiristanlığında yerləşən, yerli sakinlər arasında "Xoca Əli günbəzi" kimi tanınan türbədə ölçmə və fotofiksasiya işləri aparıldı. Qeyd etmək lazımdır ki, sakinlərindən aldığımız məlumatlara əsasən Xocalı məskənin adı məhz türbənin adından yaranmışdır. Elmi ədəbiyyatda türbənin XIV əsrə aid olduğu qeyd olunsa da, həmin tarixin hansı mənbədən qaynaqlandığı hələlik məlum deyil. Türbə Qar- qar çayın sağ sahilində, qədim qəbiristanlıq ərazisində yerləşir. Abidənin oniki bucaqlı quruluşda olması və giriş qapısının çox qabarıq, lakin sadə daşdan oyma ornamentlə işlənməsi, Xocalı türbəsini dövrün başqa abidələrindən xeyli fərqləndirir [1,s.37]. Prof. R.Əmənzadənin təsnifatına əsasən isə tikili təkkameralı, qapalı kompozisiyalı tipoloji qrupa aid edilə bilər [2, s.94]. Plan quruluşu sadə biçimli olan tikilinin xarici tərəfdən üzlük daşları tökülmüşdür. Örtük konstruksiyası da gövdəyə uyğun şəkildə onikibucaqlı piramida formasında qeydə alınmışdır. Abidə divarlarının möhkəm daxili hörgüsü və keyfiyyətli yapışdırıcısı hesabına həcm tamlığını itirməmişdir. Örtüyün piramidal konstruksiyasında ciddi çatlar və aşınmalar müşahidə edilsə də, dağılmamış qalır. Türbənin ətrafında müxtəlif qəbirüstü sənduqələr qeydə alınmışdı. Lakin həmin sənduqələrin türbəyə aid olub olmadığı gələcək tədqiqatların və uyğun ixtisaslı mütəxəssislərin iştirakı ilə aparıla bilər. Əgər həmin daşlar işğalçılar tərəfindən məhv edilməmişdir...

Ağdamdan Xocalıya helikopterlə uçarkən gördüyümüz digər abidə Əsgəran qalası oldu. Pənahəli xan tərəfindən Qarqar çayının sağ və sol sahillərində tikdirilmiş qala əzəmətli görünüşü və memarlıq həlli ilə Qarabağın müdafiə tikililəri sırasında xüsusi yer tutur. Həmin dövrdə abidənin ən son foto şəklini çəkmək bəlkə də bizə müyəssər olmuşdu.

Bu möhtəşəm memarlıq abidəsi Əsgəran şəhərinin cənubunda yerləşir. Qala XVIII əsrin ən maraqlı və iri müdafiə qurğusudur. Əsgəran qalası Qar-qarçay vadisini bağlayaraq, yalnız keçid kimi çay məcrasına nəzarət edir. Əsgəran qalası çayın sol və sağ sahilində yerləşən iki istehkamdan ibarətdir. Qalanın sağ sahildə yerləşən hissəsi 250 m uzunluqda iki qat divardan ibarətdir. Həmin divarın qıraq nöqtələrində iki düzbucaqlı bürc və orta hissədə də iki bürc yerləşir. İkiqat divar bürcləri birləşdirən divarüstü keçidin təhlükəsizliyinə imkan verir. Həmçinin, düşmənin çay istiqamətindən hücumunun qarşısını alır.



**Şəkil 2.** Xocalı şəhəri ərazisində yerləşən Xoca Əli türbəsi (XIV əsr)

Sol sahildə yerləşən qalanın digər hissəsi isə düzbucaqlı və trapesiya formalı istehkamların qovuşmasından yaranmış bir müdafiə qurğusudur. Qala divarlarının hündürlüyü bəzi yerlərdə 9 m və qalınlığı 2 m qədər çatır. Bu divarlar doğranmış çay daşından tikilmişdir [5, s.322].

.



**Şəkil 3.** Xocalıya uçarkən Əsgəran qalasının görünüşü 1991- ci il

Əsgəran qalası Azərbaycan ərazisində ən son inşa edilmiş müdafiə tikilisi sayıla bilər. Coğrafi mövqeyinə və plan quruluşuna görə qala bənzəri olmayan bir tikilidir. Daha qədim müdafiə qalaları ənənəvi olaraq əlçatmaz dağlarda inşa edilirdi, şəhər qalalarının funksiyası şəhərlərin mühafizəsi idi. Azərbaycan ərazisində mövcud olan digər müdafiə qurğuları tipi erkən orta əsrlərdə tikilmiş müdafiə sədləri sayılır. Əsgəran qalası bu mənada maraqlı quruluşa malikdir. Qalanın Qar-qarçayın sol sahilində yerləşən trapesiya formalı hissəsi dağ qalaları ənənələrinə uyğun hər tərəfdən divarla əhatələnmiş qapalı məkanlı dağ qalalarını xatırladır. Qalanın bu hissəsində ənənələrə uyğun olaraq içqala da nəzərdə tutulmuşdur.

Qalanın sağ sahildə yerləşən hissəsi isə sədd funksiyası daşıyır. Çay boyu vadi ərazindən keçidi nəzarətdə saxlamaq məqsədilə tikilmiş sədd Gilgilçay, Beşbarmaq sadlərindən miqyasına görə dəfələrlə kiçik olsa da, daşıdığı funksiya eynidir. Yəni Əsgəran qalası quruluşuna görə həm dağ qalaları, həm də müdafiə səddi elementlərini özündə daşıyırƏsgəran qalası Azərbaycan ərazisində ən son inşa edilmiş müdafiə tikilisi sayıla bilər. Coğrafi mövqeyinə və plan quruluşuna görə qala bənzəri olmayan bir tikilidir. Daha qədim müdafiə qalaları ənənəvi olaraq əlçatmaz dağlarda inşa edilirdi, şəhər qalalarının funksiyası şəhərlərin mühafizəsi idi. Azərbaycan ərazisində mövcud olan digər müdafiə qurğuları tipi erkən orta əsrlərdə tikilmiş müdafiə sədləri sayılır. Əsgəran qalası bu mənada maraqlı quruluşa malikdir. Qalanın Qar-qarçayın sol sahilində yerləşən trapesiya formalı hissəsi dağ qalaları ənənələrinə uyğun hər tərəfdən divarla əhatələnmiş

qapalı məkanlı dağ qalalarını xatırladır. Qalanın bu hissəsində ənənələrə uyğun olaraq içqala da nəzərdə tutulmuşdur.

Qalanın sağ sahildə yerləşən hissəsi isə sədd funksiyası daşıyır. Çay boyu vadi ərazindən keçidi nəzarətdə saxlamaq məqsədilə tikilmiş sədd Gilgilçay, Beşbarmaq sadlərindən miqyasına görə dəfələrlə kiçik olsa da, daşıdığı funksiya eynidir. Yəni Əsgəran qalası quruluşuna görə həm dağ qalaları, həm də müdafiə səddi elementlərini özündə daşıyırYerli çay daşından tikilmiş bu qala ətraf təbiətlə çox gözəl əlaqələndirilmiş və eyni zamanda ərazinin əlverişli şəraitindən müdafiə üçün yüksək ustalıqla istifadə edilmişdir [5, s.62]. Xocalıya səfər zamanı ekspedisiya üzvləri tərəfindən Abdal Gülablı və Gülablı kəndlərindəki məscid və hamamlara da baxış keçirilmişdir. Ölçü və fotofiksasiya işləri aparılmışdır. Abdal Gülablı məscidi kəndin yuxarısındakı təpənin üzərində yerləşir. Kənddə olarkən həmin dövrdə kəndin məşhur ağsaqqallarından sayılan Əzizxan kişi ilə tanışlığımız və onunla söhbətlərimiz əsnasında kəndin tarixi və buradakı abidələr haqqında ətraflı məlumat aldıq. Əzizxan kişinin söylədiyinə görə Abdal Gülablı kəndindəki məscid 1874-cü ildə memar Qarabaği Kərbəlayi Səfixanın layihəsi əsasında tikilmişdir. Şuşa və Ağdam məscidlərinin müəllifi olan Kərbəlayi Səfixanın dəsti-xətti bu məsciddə də özünü büruzə verir. Kvadrat biçimli dörd sütunlu olmaqla bu məscidlərin həm memarlıq-planlaşma, həm də konstruktiv quruluşu bir bənzərlik təşkil edir. Son məlumatlara əsasən işğal dövründə Abdal Gülablı kəndindəki bütün tikililər dağıdılmış yalnız məscid qismən salamat qalmışdır [6].




**Şəkil 4.** Gülablı kəndi ərazisində yerləşən hamamın planı (XIX əsr)

Gülablı kəndi ilə tanışlıq zamanı kəndin yaxınlığında tikilmiş hamam diqqətimizi cəlb etdi. Hamam binası yarı hissəsi torpaqda, digər hissəsi yer səthindən yuxarıda yerləşir. Bina istismar edilmirdi və baxımsızlıqdan ciddi aşınmalara məruz qalmışdı. Prof. R.Əmənzadənin təsnifat sisteminə görə çoxkameralı tipoloji qrupa aid edilən bina sadə düzbucaqlı plana malikdir. Abidənin vizual tədqiqi göstərdi ki, binanın şərq fasadı boyunca sonralar üç yeni otaq tikilmişdir. Bu otaqlar hamama giriş və anbar funksiyaları daşıyır. Binanın şimal tərəfində isə kürsülük mərtəbəsi və üzərində istirahət üçün nəzərdə tutulmuş otaq nəzərdə tutulmuşdur. XIX əsrin bir sıra analoji abidələrində olduğu kimi geyinib-soyunma otağı səkkiz tərəfli quruluşda olub, divarlar çatma tağlarla örtük səviyyəsinə qədər qaldırılmış və günbəzlə tamamlanmışdır. Hörgü materialı kimi yerli qaya daşlarından istifadə edilmişdir. Gülablı hamamının plan quruluşunun Şüşa hamamlarına bənzərliyi bu tikilinin də Kərbəlayi Səfixan Qarabağinin dəsti-xəttinin olmasını mülahizə etməyə əsas verir.

Gülablı kəndində olarkən əldə etdiyimiz məlumatlardan biri də kənd ərazisində mövcud olan su kəhrizi qurğusu oldu. Kənd ağsaqqalı Əzizxan kişinin (1991-ci ildə) verdiyi məlumata əsasən 350 il əvvəl inşa edilmiş kəhriz kənd sakinlərini içməli su ilə təmin edirmiş. Lakin sovet hakimiyyəti illərində baxımsız qalan bu qurğu sıradan çıxmış və 1980-ci illərin sonunda kənd sakinləri tərəfindən iməcilik yolu ilə yenidən bərpa edilmişdi. Təəssüf ki, 30 illik işğal dövründə həmin kəhriz də əsir abidə həyatını yaşamışdır.

Xocalıda, Ağdamda iki sutka ərzində keçirdiyimiz ekspedisiya müddətinin azlığına baxmayaraq, qrup üzvləri arxeoloji-etnoqrafik materialların toplanmasına da vaxt ayırmışdır. həm Xocalı şəhərində, həm də

olduğumuz kəndlərdə sakinlər tərəfindən tapılmış təsadüfi tapıntılar toplanmışdır. Xüsusilə, Ağdamın Ergi kəndində olarkən kənd sakini Məhəmməd Haciyevin təsərrüfat işləri zamanı tunc dövrünə aid tapdığı müxtəlif saxsı qab nümunələri həmin şəxsdən qəbul edilərək Bakıya gətirilmiş və AMEA-nın arxeologiya və etnoqrafiya institutuna təqdim edilmişdi.

Beləliklə, 31 il əvvəl şəxsi təşəbbüs əsasında baş tutmuş bu səfər zamanı həm layihə-tikinti işlərinin planlaşdırılması, eyni zamanda Xocalı və Ağdamın bir neçə kəndinin mədəni irsinin öyrənilməsi sahəsində qeyd olunan işlər görülmüşdür. Təəssüf ki, ekspedisiyanın baş tutduğu dövrdən qısa müddət sonra Xocalı, daha sonra Ağdam işğal edildi və Fuad Babayevin xatirə bulağının tikintisi, abidələrlə bağlı gələcək illər üçün planlaşdırdığımız işləri rellaşdıra bilmədik.

Lakin "ədalət gec-tez yerin tapır" deyirlər. Ordumuz tərəfindən işğal altında olan ərazilərin azad edilməsi həmin planları reallarşdırmaq üçün imkanlar açır. Xocalı ilə bağlı məsələyə gəldikdə isə qətiyyətlə inanırıq ki, həmin şəhərə qayıtmağımıza da az müddət qalmışdır. O an çatdıqda, həmin ərazilərə əliboş yox real niyyət və planlarla qayıtmağımız faydalı olardı. Bu səbəbdən 1991-ci ildə yarımçıq qalmış işlərimizin davamı olaraq aşağıdakı məsələlərin yerinə yetirilməsini məqsədəuyğun sayırıq:

- Xocalı şəhərində 1991-ci ildə tikintisi planlaşdırılmış şəhid Fuad Babayevin adına xatirə bulağının tikintisini tamamlamaq.

- Xocalı məzarlığında yerləşən "Xoca Əli" türbəsi ərazisində geniş tədqiqat işlərinin aparılmasını təşkil etmək. Bu işlərə abidənin müayinəsi, arxeoloji qazıntı işləri, dəqiq ölçü işləri, bərpa layihəsi, sahənin abadlıq layihəsi və s. kimi işlər aid edilməlidir. Eyni zamanda abidə ərazisindən keçməklə turizm marşrutunun sxemi təklif edilə bilər.

- Əsgəran qalasında geniş miqyaslı tədqiqat işlərinin aparılması da fikrimizcə, vacib işlərdən sayılmalıdır. Memarlıq-planlaşma həllinin unikallığı, texniki vəziyyətinin yaxşı qalması bu abidənin bərpa edilərək Pənahəli Xanın yadigarı kimi ictimaiyyətə təqdim edilməsini zəruri edir. Abidənin coğrafi mövqeyi və nəqliyyat baxımdan əlçatanlığı burada müxtəlif mədəni tədbirlərin keçirilməsinə imkan verir. Beləliklə, uzun illər Əsgəran sakinlərinin erməni abidəsi kimi dünyaya təqdim etdikləri bu qalanın əsil sahibinin azərbaycanlılar olduğunu göstərmiş olarıq.

- Ağdam rayonunun Gülablı və Abdal Gülablı kəndləri ərazisində yerləşən məscid və hamamın dövlət qeydiyyatına alınması üçün əlaqədar qurumlar qarşısında məsələ qaldırmaq qarşıda duran vəzifələrdəndir. İşğaldan azad edilmiş həmin abidələrin mövcud vəziyyətini təhlil etmək və ölçü işləri aparmaq vacib işlərdən sayılmalıdır. Abidələrin son monitorinqi göstərir ki, məscidin günbəz örtüyü dağılmışdır. Hamamın isə ön hissəsində sonralar tikilmiş otaqların və ikimərtəbəli istirahət otağının örtük konstruksiyası tam dağılmış, divarlar isə qismən salamat qalmışdır. Bu abidələrin bərpa edilərək əvvəlki funksiyasına uyğun istifadə edilməsi həm gələcək sakinlər üçün faydalı olardı, həm də abidələrin aktiv həyata qovuşmasına kömək edərdi.

Ümumiyyətlə, Xocalıya qayıdış hər bir azərbaycan vətəndaşı kimi biz memarlar üçün böyük rəmzi məna daşıyır. Dünya elminə Xocalı-Gədəbəy mədəniyyəti adı ilə daxil olmuş bu tarixi məskən təəssüf ki, 30 il əvvəl insanlıq tarixinə Xocalı genosidi kimi də daxil oldu. Xocalıya qayıdış və şəhərin dirçəlişi sahəsində görüləcək işlərin ana xəttində erməni cinayətlərinin izi hər sahədə vurğulanmalıdır. Alman faşistlərinin Avropa ölkələri və o zamankı Sovet İttifaqı ərazilərində törətdikləri cinayətlərin izləri bu günə qədər qorunub, insanlara təqdim edildiyi kimi Xocalı şəhəri ərazisində də belə muzeylər yaradılmalıdır. İnsanlıq tarixinə Osvensium, Buhenvald, Xolokost muzeyləri kimi Xocalı muzeyi də daxil edilməlidir. Bu muzey həm Xocalının şəhər planında o zamankı dağıntıların izlərinin saxlanması kimi əksini tapmalıdır, həm də ayrıca müasir binalar kompleksi kimi düşünülməlidir. Fikrimizcə, tələbələrin həm kurs layihələrinin, həm də diplom işlərinin aktual mövzularından biri Xocalı genosidi muzeyi olmalıdır.

Xocalının bir şəhər kimi bərpa və inkişaf planında memarlıq fakultəsinin iştirakı daha fəal və qabaqlayıcı olmalıdır. Baş plan üzərində aparılacaq gələcək işlərdə Xocalı ərazisində və ətrafındakı memarlıq və arxeoloji abidələrin istifadəsinə xüsusi yer verilməlidir. Ərazinin zəngin təbiəti və çoxsaylı abidələri bölgədə turizmin inkişafı üçün geniş imkanlar açır. Bu imkanlar məntiqlə düşünülmüş plan əsasında reallaşa bilər. Belə yanaşma Xocalının gələcək inkişafına müsbət təsir edəcək, eyni zamanda bu ərazidə yerləşən zəngin mədəni irsin qorunmasına xidmət edəcək.

**Ədəbiyyat**

1. Salamzadə, Ə.R. Azərbaycanın memarlıq abidələri / Ə.R. Salamzadə. – Bakı: "Azərbaycan" dövlət nəşriyyatı, 92s. 1958
2. Амензаде Р.Б. Композиционные закономерности монументальных сооружений Азербайджана XI-XVII веков. Баку. Елм, 226с. 2007
3. Керимов, В.Х. История развития оборонительного зодчества Азербайджана / В.Х.Керимов. – Баку: Nafta-Press,. 241с. 2007
4. Фатуллаев, Ш.С. Градостроительство Баку XIX - начала XX веков / Ш.С.Фатуллаев. - Баку: Стройиздат- Ленинградское отделение, 542с. 1986
5. Усейнов, М. История Архитектуры Азербайджана/М.Усейнов, Л.Бретаницкий, А.Саламзаде.- Москва: Государственное издательство литературы по строительству, архитектуре и строительными материалам, 396с. 1963
6.https://kulis.az/xeber/media/Abdal-Gulablinin-dagidilmis-qebiristanligi:-9-yasli-qizcigazin-gulllnmis-basdasi-colorred Reportajcolor-35831